# Topçubaşov Məhkəmə Müsabiqəsi

# 2025

# Yazılı Bələdçisi

Veb-sayt: mcs.bsulawss.org
E-poçt: mootcourtsociety@bsulawss.org

Bu Bələdçinin əsas məqsədi Topçubaşov Məhkəmə Müsabiqəsi iştirakçılarına Müsabiqənin Yazılı mərhələsində tərəflərin yazılı mülahizələrinin (bundan sonra – Yazılı) hazırlanması ilə bağlı bəzi məqamları izah etməkdir. Bələdçiyə əvvəlki illərin uğurlu Yazılılarından nümunələr daxil edilmişdir.

## MÜNDƏRİCAT

I. Ümumi Tələblər....3
II. Faktlardan və hüquqdan istifadə....3
III. Yazılının hissələri....4
A. Üz səhifəsi....4
B. Mündəricat....5
C. İstifadə olunmuş mənbələr....6
D. Giriş....7
E. İşdə istifadə edilən faktlar....8
F. Arqumentlərin xülasəsi....8
G. Hüquqi arqumentlər....9
H. Məhkəməyə müraciət....10

# I. Ümumi Tələblər

1. Yazılı (üz səhifəsi istisna olmaqla) maksimum 4000 sözdən ibarət ola bilər. Yazılıda istifadə olunan yazı şrifti Times New Roman, yazının ölçüsü 12 olmalıdır. Başlıqların yazıdan fərqləndirilməsi üçün onlar daha böyük ölçüdə yazıla bilər.
2. İştirakçı komanda Yazılıları Microsoft Word (*.docx) formatında Müsabiqə vebsaytındakı müvafiq bölmə vasitəsilə təqdim etməlidir. Yazılılar lazımi qaydada adlandırılaraq təqdim edilməlidir. Belə ki, fayl adı komanda nömrəsindən və Yazılının Ərizəçi və ya Cavabverənə aid olmasını göstərmək üçün müvafiq olaraq "Ə" və ya "C" hərflərindən ibarət olur (məsələn, 3Ə və ya 3C).
3. Bələdçidə "**Yazılının hissələri**" başlığı altında göstərilən hissələrin Yazılıda göstərilməsi mütləqdir.

# II. Faktlardan və hüquqdan istifadə

1. İşdəki faktlardan hüququ həmin faktlara tətbiq edərək yararlanmağa çalışın. Faktlardan yararlanmaq heç bir halda onların təhrif olunması kimi başa düşülməməlidir. İşin faktları qətidir və komandalar bunları dəyişilməz olaraq qəbul etməlidir.

2. İşdə həm Ərizəçi, həm də Cavabverənin xeyrinə istifadə edilə biləcək faktlar mövcuddur. Tərəflərdən birinin lehinə olan fakta qarşı istifadə ediləcək digər faktı elə ilk faktın yanında axtarmağınız mütləq deyildir. Belə ki, həmin fakt İşin daxilində başqa bir yerdə də tapıla bilər. Bir sözlə, həm Ərizəçi, həm də Cavabverən İşin bir çox hissələrində öz lehlərinə və əleyhlərinə faktlar aşkar edə bilər.

3. Aşağıdakı nümunədə bir İşdən olan iki fərqli faktın təqdimatı ilə tanış ola bilərsiniz:

> 22 aprel 2020-ci il tarixində Dövlət Vergi Xidməti vergi nəzarəti tədbirlərinin süni intellektlə həyata keçirilməsinə imkan verən "Al-G" proqram təminatının istifadəsinə başladığını bəyan etmişdir. Proqram vergi qanunvericiliyini "təbii dil emalı" yolu ilə analiz edib faktlar üzərində tətbiq edərək hesabatlar hazırlayır.
>
> 5 iyun 2020-ci il tarixində Şirkətin elektron vergi sistemindəki kabinetində Şirkətin əmtəəsiz əməliyyatlara görə riskli vergi ödəyicisi kimi qeydə alındığı barədə bildiriş yerləşdirilmişdir. Bundan sonra Şirkət Xidmətin qərarının mübahisələndirilməsi barədə qərar vermişdir. Məsələ barədə Şikayət məktubu alan Xidmət qərarın ləğvi üçün əsas görmədiyini bildirmiş və bundan sonra Şirkət məhkəməyə müraciət etmişdir.

# III. Yazılının hissələri

Yazılının aşağıda verilmiş hər bir hissəsi yeni səhifədən başlamalıdır.

## A. Üz səhifəsi

1. Üz səhifəsi Qaydalara müvafiq olaraq Yazılıya daxil edilməli olan hissələrdəndir. Komandalar tərəflərin təyinatı ilə birgə adlarını, həmçinin bu səhifənin aşağısında komanda nömrələri ilə yanaşı, Yazılının Ərizəçi və ya Cavabverən mövqeyindən yazıldığını göstərməyi unutmamalıdırlar. Məsələn, aşağıdakı nümunənin üz səhifəsindəki bu işarə “10Ə”dir:

**Konstitusiya Məhkəməsi**

**“Günerji” Məhdud Məsuliyyətli Cəmiyyəti**
Ərizəçi

**Azərbaycan Respublikası Dövlət Vergi Xidməti**
Cavabverən

**10Ə**
*(komanda nömrəsi və ərizəçi və ya cavabverən olmasını göstərən baş hərf)*

**GG.AA.İİİİ**
**(tarix)**

2. Komandalar tərəflərin adlarını İşə nəzər salmaqla müəyyən edirlər. Tarix hissəsində isə Yazılıların təqdim edildiyi tarix qeyd edilir.

## B. Mündəricat

1. Mündəricatın Yazılıya daha rahat şəkildə daxil edilməsi və lazım olduğu təqdirdə avtomatik yenilənməsi üçün Microsoft Word və ya başqa mətn proqramının üslub və başlıq (*heading)* funksiyalarından istifadə etmək tövsiyə olunur:




2. Belə ki, proqram başlıq kimi işarələnmiş yazıları mündəricat formasında indeksləyə bilir. Microsoft Word proqramında bunun üçün aşağıdakı hissədən istifadə etmək lazımdır:



3. Nümunə mündəricat bölməsi aşağıdakı kimidir:

**MÜNDƏRİCAT**

**İstifadə olunmuş mənbələr** ........ **5**

**Giriş** ........ **6**

**İşdə istifadə edilən faktlar** ........ **6**

**Hüquqi arqumentlər** ........ **7**

**I. Mülki Məcəllədəki "yalan əqd" anlayışı Vergi Məcəlləsindəki "əmtəəsiz əməliyyat" anlayışı ilə zidd deyil** ........ **8**

**Arqumentlərin xülasəsi** ........ **8**

**Məhkəməyə müraciət** ........ **9**

4. Mündəricatı Yazılını tamamladıqdan sonra yeniləmək lazımdır. Bunun üçün *Word*-də alətlər panelindəki *References* bölməsindən *Update table* seçimini kilikləmək lazımdır. Aşağıdakı şəklə diqqət yetirin:




## C. İstifadə olunmuş mənbələr

1. Burada Yazılı hazırlayarkən istifadə edilən qanunvericilik aktları, məhkəmə işləri, doktrinal mənbələr və digər etibarlı mənbələr qeyd edilir. Mənbələrin adları tam və anlaşıqlı olmalıdır. Mənbələrin etibarlılığı barədə məlumat üçün Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalının Məqalə Tələblərindəki qaydalara baxmağınız tövsiyə olunur: http://lr.bsulawss.org/submission/policy

2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Qanunlar və Konvensiyalar**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (mad. 15.1.1;15.1.4;15.1.5) (2000)
2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu mad. 8.0.3 (2010)
3. ...

**Məhkəmə qərarları**

1. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 78.3, 85.4, 90.3 və 93.1.1-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun Qərarı (12.01.2011)
2. "Centro Europa 7 S.R.L və Dı Stefani İtaliyaya qarşı" iş üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Qərarı (07.06.2012)
3. ...

***Qeyd:*** Yazılıdakı müvafiq cümlə və ya abzasların "İstifadə olunmuş mənbələr" hissəsindəki hansı mənbə ilə əlaqəli olmasını mətn daxilində yazı ilə göstərmək əvəzinə, "footnote" vasitəsilə göstərmək olar. "Footnote"-lardan istifadə edilib-edilməməsindən asılı olmayaraq, "İstifadə olunmuş mənbələr" hissəsi mövcud olmalıdır.

"Footnote"-lardan istifadə etmək üçün Word-də alətlər panelindəki *References* bölməsindən *Insert Footnote* seçimini klikləmək lazımdır. Aşağıdakı şəklə diqqət yetirin:




## D. Giriş

1. Bu hissə əsas hüquqi məsələləri və tərəfin mövqeyini çatdırmaqla işin qısa icmalı kimi çıxış edir. Nəticədə, oxucuda növbəti hissələr barədə daha aydın bir fikir formalaşır.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

Ərizəçi "Günerji" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Şirkət") 22 aprel 2020-ci il tarixində cavabverən Dövlət Vergi Xidməti (bundan sonra Xidmət) tərəfindən aparılan nəzarət tədbirinin nəticələrinin qanunsuz olduğu qənaətindədir. Belə ki, Vergi Xidmətinin mövqeyinə görə ərizəçi alğı-satqı əməliyyatlarını pərdələmək üçün maliyyə lizinqi adı altında satışlar həyata keçirmişdir və Vergilər Məcəlləsində nəzərdə tutulan əmtəəsiz əməliyyat aparmışdır. Məhz bu səbəbdən də cavabverən tərəfindən şirkət riskli vergi ödəyicisi kimi qeydə alınmış və bu barədə hesabata məlumat daxil edilmişdir. Ərizəçi Xidmət tərəfindən onlara qarşı əsassız qərarın qəbul edildiyini və bunun cəlb edə biləcəkləri milyonlarla sərmayənin itirilməsinə yol açdığını iddia edir.

## E. İşdə istifadə edilən faktlar

1. Bu hissədə İşin əhəmiyyət kəsb edən faktları lakonik şəkildə xronoloji ardıcıllıqla təqdim edilir. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

> 1. Fizika üzrə fəlsəfə doktoru Şəms Muxtar günəş panellərinin effektiv işləməsini təmin edən ixtirasını maliyyələşdirmək üçün 100.000 manat ianə toplamış, eyni zamanda o, "Günenerji" Məhdud Məsuliyyətli Cəmiyyətini təsis etmişdir. Topçubaşov rayonunda qurulan panel istehsal sexi 22 oktyabr 2019-cu ildə fəaliyyətə başlamış və istehsal məqsədilə kredit götürülmüşdür.
> 2. Panellərin sexdə hazırlanan kimi sifarişçilərə göndərilməsini təmin etmək məqsədilə Şirkətin veb-saytında yaradılmış xüsusi bölmədə verilən məlumatlara əsasən, sifariş üçün veb-sayt üzərindən şirkətlə sifarişçilər arasında Lizinq və Texniki Xidmət Müqaviləsi (bundan sonra "Müqavilə") bağlanılır.
> 3. ....

## F. Arqumentlərin xülasəsi

1. Bu hissə Konstitusiya Məhkəməsinə ünvanlanan suallar üzrə Yazılıda təqdim olunan arqumentlər üçün giriş xarakteri daşıyır. Xülasədə qeyd olunan arqumentlərin hər biri "Arqumentlər" hissəsində aydınlaşdırılır və əsaslandırılır.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

> I. Xüsusi mülkiyyətin girişində yerləşdirilmiş lövhənin reklam hesab edilməsi və lövhə üçün açıq məkanda reklam kimi icazə və ödəniş tələb olunması konstitusional mülkiyyət hüququna ziddir.
>
> II. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozur.
>
> III. ...

## G. Hüquqi arqumentlər

1. Bu hissə Yazılının ən əsas hissəsidir. Burada İşdə Konstitusiya Məhkəməsinə ünvanlanan suallar əsasında, yəni xülasədə qeyd olunan başlıqlar üzrə əsaslandırmalar aparılır.
2. Hüquqi əsaslandırma metodu kimi IRAC (*I – Issue, R – Rule, A – Application, C – Conclusion)* metodundan istifadə oluna bilər. Bu metoddan istifadə zamanı barəsində mövqe irəli sürülməli olan məsələ (*issue)* qeyd edilir. Daha sonra tətbiq olunacaq qaydalar *(rule)* sıralanır və ehtiyac olarsa, qaydaların izah və təfsiri təqdim olunur. Təqdim olunmuş qayda və onun izahı faktlara tətbiq (*application*) olunur. Yekunda, adətən bir cümlə ilə əsaslandırmanın məntiqi nəticəsi *(conclusion)* təqdim edilir.
3. Hər başlıqda müvafiq qaydanın (*rule*) yalnız bir dəfə tətbiq edilməsi mütləq deyildir. Bir başlıq və ya məsələ üzrə müxtəlif hüquq qaydaları sistemli şəkildə izah, təfsir və tətbiq edilə bilər. Daha rahat başa düşülməsi üçün bir məsələnin əsaslandırılması ayrı-ayrı paraqraflara da bölünə bilər.
4. Nümunə üçün aşağıdakı sadə əsaslandırma mətninə baxa bilərsiniz:

**A. Reklam qanunvericiliyinin reklam və qeyri-reklam fəaliyyəti göstərən şəxsləri fərqləndirməməsi konstitusional bərabərlik hüququnu pozur.**

Agentlik tərəfindən Şirkətə reklam şirkəti kimi davranılır, lakin Şirkətin reklam şirkəti hesab edilməsi üçün reklam fəaliyyətinin subyekti olması zəruridir...

"Reklam haqqında" Qanunun 1.1-ci maddəsinə görə bu Qanun AR-in ərazisində reklam fəaliyyətinin subyektləri arasında reklamın sifarişi, istehsalı, yayımı, istehlakı ilə bağlı yaranan münasibətlərə tətbiq edilir. Reklam subyektləri dedikdə isə reklamverici, reklam yaradıcısı, reklam istehsalçısı, reklam agenti, reklam yayıcısı və reklam istehlakçısı başa düşülür. Şirkət adı çəkilən heç bir reklam subyektinə daxil deyil, bunun səbəbi həm ümumiyyətlə bazanın girişində yerləşən lövhənin reklam olmaması, həm də reklam obyektinin mövcud olmaması və Şirkətin qeyd edilən reklam subyektlərinin yerinə yetirdiyi fəaliyyəti icra etməməsidir...

Bu səbəblə də "Süngün" MMC-yə qeyri-reklam fəaliyyətinin subyekti olması nəzərə alınmaqla davranılmalıdır.

**Qeyd:** Hüquqi arqumentlər başlığının altında qeyd olunan hissələrin başlıqları *Styles* hissəsindəki *Heading 2* kimi işarələnməlidir ki, Mündəricat indekslənərkən "Hüquqi arqumentlər" başlığının alt başlıqları kimi mündəricatda çıxsın (Yəni İşdə istifadə edilən faktlar, Arqumentlərin xülasəsi və digər əsas başlıqlar *Heading 1* kimi işarələnir):




## H. Məhkəməyə müraciət

1. Bu hissədə məhkəmədən hansı məsələlər üzrə və hansı qaydada qərar qəbul etməsi üçün xahiş etdiyiniz göstərilir.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

# Məhkəməyə müraciət

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Məhkəmədən

**XAHİŞ EDİRİK:**

1. ”Süngün” MMC-nin Açıq Məkanda Reklam Agentliyinə qarşı məlumat lövhəsinin “reklam lövhəsi” kimi təsnif edilməməsi, ödənilmiş dövlət rüsumunun və 5000 manat cərimə məbləğinin Agentlikdən tutulub Şirkətə ödənilməsi və icazə təmin edildiyi halda əvvəlki dövr üçün yayım haqqı və dövlət rüsumunun tələb edilməməsi tələbinə dair mülki iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 417.1.4-cü və 417.2-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.
2. İşə bu Qərarda göstərilən hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.